**Zibeydə Arif qız ŞƏKƏRƏLİYEVA**
Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı,
iqtisad üzrə fəlsəfə doktoru, dosent.
E-mail: arifshakaraliyev1949@mail.ru

# AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORU SAHƏLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ VƏ İXRAC POTENSİALININ ARTIRILMASI YOLLARI

**Xülasə**

*Tədqiqatın məqsədi* – Azərbaycanda qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi və ixrac potensialının artırılması yollarının müəyyənləşdirilməsidir. Qeyri-neft sektorunun inkişaf etdirilməsi potensialı təhlil olunmuş və qiymətləndirilmişdir. Qeyri-neft ixracının potensialı araşdırılmış və ixracın strukturunun genişləndirilməsi yolları baxılmışdır. Ölkəmizdə qeyri-neft ixracının prioritetliyi nəzərə alınmaqla, müxtəlif ixracyönlü iqtisadiyyat sahələrinin ixrac potensialının imkanları öyrənilmişdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının qeyri-neft ixrac potensialı da baxılmaqla, Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialının perspektivləri üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

*Tədqiqatın metodu* – kimi bir qrup elmi metodlardan – analiz, sintez və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Eyni zamanda, qeyri-neft ixrac potensialının araşdırılması ilə məşğul olan alim və tədqiqatçıların elmi əsərləri də nəzərə alınmışdır.

*Tədqiqatın nəticələri* – hazırkı dövrdə ölkəmizin qeyri-neft ixracının strukturunun təkmilləşdirilməsi və ixrac potensialının artırılması üzrə fəaliyyət strategiyalarının və tədbirlərin reallaşdırılmasında tədqiqatın nəticələrindən istifadə edilməsi ilə əlaqəlidir.

***Açar sözləri:*** qeyri-neft sektoru, ixrac potensialı, qeyri-neft sektorunun inkişafı, qeyri-neft ixracının strukturu, ixrac potensialının manevrliyi, ixrac potensialının artırılması yolları.

**UOT:** 338.242; 338.33
**JEL:** A11; E23; D04; F13

## Giriş

Qeyri-neft sektorunun inkişaf etdirilməsi və onun ixrac potensialının artırılması Azərbaycan üçün müasir dövrdə kifayət qədər strateji əhəmiyyət kəsb edir. Ölkəmizdə iqtisadiyyatın dayanıqlılığının gücləndirilməsi, qlobal təsirlərə qarşı daha çevik və səmərəli iqtisadi mexanizmlərin işlənilməsi və tətbiq edilməsi hazırkı şəraitdə daha çox aktualdır. Qlobal transformasiyalar şəraitində enerjidaşıyıcıların qiymətlərinin qeyri-sabit olması xammal ixracı üzrə ixtisaslaşan ölkələr, o cümlədən Azərbaycan üçün müəyyən qlobal risklərlə bağlıdır [1, s 158]. Məsələn, neftin qiymətinin düşməsi dərhal Azərbaycanın xarici ticarət balansına təsir göstərə bilir və ölkəmizə daxil olan valyuta vəsaitlərinin azaldılmasına səbəb olur. Bu isə makroiqtisadi və makromaliyyə sabitliyi baxımından ciddi amillərdir. Məhz bu amillər əsas götürülməklə qeyri-neft sektoru sahələrinin inkişaf imkanları dərindən araşdırılmalı və ixrc potensialının daha səmərəli, məhsuldar istiqamətləri müəyyənləşdirilməlidir [2, s. 91].

## Ölkədə qeyri-neft sektoru sahələrinin inkişaf proseslәreinin və ixrac potensialının mövcud vəziyyətinin təhlili

Qeyd etmək lazımdır ki, ölkəmizdə bir sıra makroiqtisadi səviyyələrdə sabit və davamlı inkişaf templərinə nail olunmuş, ölkədə keçid iqtisadiyyatı prosesi başa çatdırılmışdır. Son məhsul istehsalında qeyri-neft sektorunun inkişafı üçün texnoloji zəncir yaradılması, hazır məhsulların rəqabətqabiliyyətliliyinin artırılması, bu sahədə ixracın həcminin və çeşidinin genişləndirilməsi lazımdır. Eyni zamanda, qeyri-neft sənayesini inkişaf etdirmək üçün ölkənin təbii və iqtisadi ehtiyatlarını dövriyyəyə cəlb etmək və onlardan istifadənin səmərəliliyini artırmaq lazımdır. Çünki, qeyri-neft sənayesi sahələrini əhatə edən texnoparkların və sənaye zonalarının yaradılması Azərbaycan üçün daha səmərəlidir [3, s. 192]. Bu sahələrin inkişafı digər sahələrin

inkişafı üçün əsasdır. Bu səbəbdən sənayeləri sürətləndirəcək böyük layihələr texnoparklar və sənaye zonaları ilə əlaqələndirilməlidir.

Digər tərəfdən, milli iqtisadiyyatın şaxələndirilməsində Azərbaycanda qeyri-neft sektorunun diversifikasiyalaşdirilməsı mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, Azərbaycanın iqtisadi siyasətinin əsas məqsədlərindən biri iqtisadi artımdır və buna ilk növbədə milli iqtisadiyyatın şaxələndirilməsində daha çox diqqət yönəldilən qeyri-neft sektorunun inkişafı ilə nail olmaq mümkündür [4, s. 96]. Eyni zamanda, ictimai rifahın səviyyəsi bilavasitə ölkə rəhbərliyinin iqtisadi artımı stimullaşdırmaq üçün həyata keçirdiyi siyasətin nə dərəcədə səmərəli olacağından asılıdır. İqtisadi artım cəmiyyətin inkişafı üçün ilkin şərtlərin formalaşması və həyata keçirilməsi ilə xarakterizə olunan iqtisadi inkişafın tərkib hissəsidir. İqtisadi artım xeyli dərəcədə milli iqtisadiyyatın modernləşdirilməsi səviyyəsindən asılıdır. Milli iqtisadiyyatın modernləşdirilməsi həm neft, həm də qeyri-neft sektoruna-müsbət təsir edir. Milli iqtisadiyyatın modernləşdirilməsi prosesinə iki əsas yanaşmanı ayırd etmək olar: 1) innovativ və 2) diversifikasiya. İnnovativ yanaşma modernləşmə prosesində ən son qabaqcıl texnologiyaların tətbiqini, yüksək rəqabətə davamlı, elmi, təhsil və texnoloji profillərin inkişaf etdirilməsini nəzərdə tutur. Modernləşmə prosesinin hərəkətverici qüvvəsi məhz innovativ inkişaf və buna uyğun elmi-tədqiqat işlərinə investisiya qoyuluşudur.

Azərbaycanın ÜDM-də qeyri-neft sektorunun və aqrar-sənaye kompleksinin payının artırılmasına, eləcə də regionların inkişafına yönəldir. Aydındır ki, ölkənin qeyri-neft sektorunda modernləşmə dəyişikliklərinin uğurla həyata keçirilməsi üçün hər iki konsepsiyanın birləşməsi lazımdır. Azərbaycan sənayesində modernləşmə dəyişiklikləri innovativ inkişafla ayrılmaz şəkildə bağlıdır ki, bu da təkcə ümumi iqtisadi paradiqmanı deyil, həm də onun ayrı-ayrı elementlərinin xarakterini müəyyən edir [5, s. 180]. İnnovasiya sistemi yerli sənaye kompleksinin davamlı inkişafını təmin etmək üçün elmi tədqiqatların və yüksək rəqabətə davamlı texnoloji inkişafın formalaşmasını və təkamülünü nəzərdə tutur. Qarşıya qoyulan vəzifələrin həlli zamanı elmi-tədqiqat və inkişaf işlərinə dövlət səviyyəsində dəstək vermək lazımdır. Ölkədə sənayenin modernləşdirilməsinin təşviqinin mühüm aspekti əlçatan istehsal infrastrukturunun yaradılmasını və bürokratik maneələrin azaldılmasını əhatə edən əlverişli biznes mühitinin formalaşdırılmasıdır. Bu məsələ çərçivəsində qeyd etmək lazımdır ki, Azərbaycan hökuməti sahibkarlar üçün optimal biznes mühitinin yaradılmasına müəyyən töhfə verir [6, s. 221].

Ölkədə qeyri-neft sektorunun inkişafını daha əyanı təsəvvür etmək üçün son illərin göstəricilərinə diqqət etmək istərdik. Belə ki, emal sənayesi məhsullarının çeşidi və həcmi artım nümayış etdirmişdir.

Şəkil 1-də Azərbaycanda 2011-2021-ci illərdə emal sənayesi məhsulunun dinamikası əks olunmuşdur və 2021-ci ildə 2020-ci ilə nisbətən emal sənayesi məhsullarının istehsalında 34,1 % artım baş vermişdir.

Qeyri-neft sənayesinin inkişaf imkanları ildən-ilə özünün büruzə verməkdədir və bu baxımdan sənaye istehsalında məhz bu istiqamətlərdə yeni artım mənbələrinin formalaşdırılmasını görürük. Bunlar həm də ixrac potensialının artırılması üçün ciddi əsaslar yaradır.

Şəkil 2-də 2021-ci il üzrə Azərbaycanda qeyri-neft sənayesinin ümumi buraxılışının strukturu əks olunmuşdur və qida məhsulları ümumi strukturda daha çox paya malikdir. Son illərdə tütün məmulatları istehsalının və kimya sənayesinin payı da artmaqdadır.

Ölkənin qeyri-neft təmayüllü sənaye sahələrinin inkişaf etməsi həm də xarici ticarət dövriyyəsinin dinamikliyinə müsbət təsir göstərir, xüsusilə ixrac potensiaının artırılmasına imkan verir.

Şəkil 3-də 2011-2021-ci illərdə ölkə ixracının dinamikasını vermişik və 2021-ci ildə 2020-ci illə nisbətdə artım 77 % təşkil etmişdir və bu kifayət qədər böyük rəqəmdir.




**Şəkil 1. Azərbaycanda 2011-2021-ci illərdə emal sənayesi məhsulunun dinamikası, mlyn. manatla**

Mənbə: ARDSK-nın məlumatları əsasında hazırlanmışdır – https://www.stat.gov.az/




**Şəkil 2. Azərbaycanda 2021-ci ildə qeyri-neft sənayesinin ümumi buraxılışın strukturu, %-lə**

Mənbə: ARDSK-nın məlumatları üzrə hazırlanmışdır – https://www.stat.gov.az/.)




**Şəkil 3. Azərbaycanda 2011-2021-ci illər üzrə ixracın dinamikası, mlyn. ABŞ dolları (ARDSK-nın məlumatları üzrə hazırlanmışdır – https://www.stat.gov.az/.)**

**Müasir dövrdə qeyri-neft sektoru sahələrinin inkişafının sürətləndirilməsi və ixrac potensialının artırılması istiqamətləri**

Yaxın perspekvdə Azərbaycanda qeyri-neft sektoru sahələrinin inkişafının sürətləndirilməsi və eyni zamanda ixrac potensialının genişləndirilməsi tədbirlərinin daha səmərəli təşkilinə zərurət yaranmışdır [7, s. 51]. Ölkədə bu istiqamətlərdə yüksək nəticələr əldə etmək üçün kifayət qədər resurslar, o cümlədən təbii və iqtisadi resurslar, həmçinin müvafiq infrastruktur mövcuddur. İxracın strukturunun genişləndirilməsi və həcminin artırılması istiqamətində ehtiyat mənbələri vardır. Qeyd olunan bu amillərin ciddi şəkildə, sistemli olaraq nəzərə alınması Azərbaycanda qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə və ixrac potensialının artırılmasına mövcud potensialdan, təbii və iqtisadi resurslardan daha səmərəli istifadə edilməsinə imkan verə bilər. Ayrı-ayrı qeyri-neft sektoru sahələrinin sahələrinin inkişafını ləngidən amillərin aradan qaldırılması və təsirli tədbirlərin görülməsi, sahibkarlığın inkişafı ilə bağlı zəruri addımların atılması, sahibkarlıq subyektlərinin fəaliyyətində dövrün tələblərinin nəzərə alınması mütləqdir. Bu baxımdan hesab

edirik ki, qeyri-neft sektoru sahələrinin sahələrinin inkişaf etdirilməsi və ixrac potensialının artırılması imkanlarının nəzərə alınması və dəyərləndirilməsi vacibdir [8, s. 19].

Lakin bu istiqamətdə inkişafın təmin edilməsi baxımından elə məsələlər vardır ki, onların ətrafında fəaliyyət mexanizmlərinin yenilənməsi, dövrün tələblərinə uyğunlaşdırılması və bununla bağlı əlavə tədbirlərin görülməsi, obyektiv vəziyyətin araşdırılması əsasında qiymətləndirilmələrin aparılması və mövcud perspektiv fəaliyyət istiqamətlərinin, şübhəsiz, işlək mexanizmlərlə müşaiyət edilməsi olduqca vacibdir. Digər tərəfdən, qeyri-neft sektoru sahələrinin inkişafına və ixrac potensialının artırılmasına təsir edən bir sıra amillər vardır ki, onların mütləq şəkildə nəzərə alınması və dəyərləndirilməsi tələb olunur [9, s. 75].

Əgər biz Azərbaycanda mühüm qeyri-neft sektoru sahələrinin inkişaf proseslərindən və onların ixrac potensialından çıxış etsək bir çox amilləri daha çox fərqləndirə bilərik: 1. İlk növbədə ölkəmizdə qeyri-neft sektorunun inkişafına və ixracın diversifikasiyalaşdırlmasına təsir edən mühüm amillərdən biri iqtisadi bürokratiyanın, idarəetmə bürokratiyasının və inhisarçılığın hələ də müxtəlif iqtisadiyyat sahələrində olmasıdır [10, s. 8]. Hesab edirik ki, yaxın perspektivdə Azərbaycanda rəqabət məcəlləsinin təsdiqi həyata keçirilməli və ölkədə daha sağlam mühitə malik olan rəqabət mühiti yaradılmalıdır. 2. Qeyri-neft sektoru sahələrinin mövcud resurslarından istifadənin maliyyə mexanizmləri hələ kifayət qədər bazar iqtisadiyyatı tələblərinə, dövrün tələblərinə uyğun deyildir. Buna görə də qeyri-neft sektorunun perspektivli sahələrinin intensiv inkişafına nail olmaq üçün işlək maliyyə mexanizmləri və əlçatan maliyyə resurslarının, investisiya resurslarının və axınlarının olması təmin edilməlidir. 3. Ölkədə ayrı-ayrı qeyri-neft sektoru sahələrinin, xüsusilə innovasiyayönlü və ixracyönlü iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi istiqamətində qanunvericilik aktlarının təkmilləşdirilməsi, müvafiq ölkə qanunlarının qəbul olunması məsələləri hələ də yubanır. Məsələn, innovasiya fəaliyyətini tənzimləyən müvafiq ölkə qanunu yoxdur. Bu baxımdan hesab edirik ki, Azərbaycanda innovasiyaların işlənməsi, tətbiqi və innovasiya məhsullarının alınması ilə bağlı qanunvericilik aktlarının formalaşdırılması prosesləri sürətləndirilməli və bununla bağlı zəruri tədbirlər görülməlidir. 4. Yüksək texnologiyaların transferi məsələləri ölkəmizdə hələ də istənilən səviyyədə deyildir. Heç də sirr deyildir ki, əksər iqtisadiyyat sahələrində hələ də yüksək texnologiyaların transferi məsələləri həll olunmamışdır.

Azərbaycanda son illərdə qeyri-neft sektoru sahələrinin və ixrac potensialının artırılması proseslərinin inkişafı ilə bağlı əsas məqamlar: 1) bu sahələrdə iqtisadi artım mənbələrinin və ixarc potensialının formalaşdırılması; 2) yeni iş yerlərinin yaradılması; 3) alternativ maliyyə mənbələrinin formalaşdırılması; 4) əlavə dəyər mənbələrinin yaradılması və 5) istehsal zənciri üzrə tədbirlərin görülməsindən ibarətdir [11, s. 63]. Azərbaycan milli iqtisadi inkişaf nöqteyi-nəzərindən iqtisadi inkişaf modelinin strukturunda neft-qaz sənayesi ilə yanaşı, rəqabət qabiliyyətli qeyri-neftqaz sənaye sahələri vardır [12, s. 31]. Bununla belə qeyd etmək istərdik ki, qeyri-neftqaz sənayesinin Azərbaycan üçün ənənəvi olan sahələrinin imkanlarından məqsədli şəkildə istifadə olunması, burada olan resursların obyektiv olaraq qiymətləndirilməsi, təsərrüfat və maliyyə dövriyyəsinə cəlb edilməsi olduqca vacib məsələlərdəndir. Digər tərəfdən işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın şaxələndirilməsi üçün əlavə tədbirlərin görülməsi və yeni ixrac potensialı mənbələrinin formalaşdırılması imkanları artmışdır [13, s. 90]. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının mövcud resurslarından məhsuldar istifadə edilməklə, bir tərəfdən qeyri-neft sektorunun şaxələndirilməsi mümkün olacaq, digər tərəfdən isə qeyri-neft ixracının strukturunun diversifikasiyalaşdırılması üçün yeni mənbələr yaranacaqdır.

## Nəticə

Beləliklə qeyd edə bilərik ki, yaxın perspektivdə Azərbaycanda qeyri-neft sektoru sahələrinin inkişafının intensivləşdirilməsi və ixrac potensialının artırılması üçün daha çox imkanlar yaranacaqdır. Bu istiqamətlərdə bir qrup tədbirlərin daha çox diqqət mərkəzində saxlanılması məqsədəuyğundur:

– ölkəmizdə qeyri-neft sektoru sahələrinin ixracyönlü imkanlarının daha dərindən öyrənilməsinə və emal dərinliyinin təmin edilməsinə ehtiyac vardır;

– bir sıra qeyri-neft sektoru sahələrinin, məsələn metallurgiya, yüngül sənaye və s. sahələrin potensialından səmərəli istifadə edilməsində ciddi tədbirlərə zərurət yaranıb;

– yeni yaradılmış iqtisadi rayonların – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonların qeyri-neft ixrac potensialının müəyyənləşdirilməsi və bu istiqamətlərdə rəqabətqabiliyyətli emal sənayesi müəssisələrinin yaradılması tədbirləri görülməlidir və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. World Economics and Social Suvey 2013. Sustainable Development Challenges. United Nation publication. Sales No. E.13. II. C.1, United Nations, – 2013. –216 p.

2. Abbasov, İ.M., Əliyev T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. – Bakı: "Elm və Təhsil", – 2017, – 501 s.

3. Əliyev, Ş.T. Azad iqtisadi zonaların inkişafının aktual aspektləri. Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, 2022, – 422 s.

4. Садыгов, Ш.М. Приоритетная развития ненефтяного сектора экономической политики Азербайджана// Журнал «Інвестиції: практика та досвід», – 2014. №15, –с. 94-99.

5. Əliyev, Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018. – 376 s.

6. Чигрин, А.Д. "Голландская болезнь" в свете теории сравнительных преимуществ // Актуальные проблемы гуманитарных и естественных наук – 2015. № 8-1, – с. 218-229.

7. Əliyev, Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Sumqayıt, 2015. –185 s.

8. Əliyev, V.N. Azərbaycanda qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsi problemləri. İ.e.f.d. diss. avtoreferatı / – Bakı, 2015. – 31 s.

9. Qasımov, A.A. Azərbaycanın ixrac potensialı və onun artırılması problemləri. // Bakı Universitetinin xəbərləri, sosial-siyasi elmlər seriyası. – 2007. № 3, – s. 71-79.

10. Şəkərəliyev, A.Ş. İxracın strukturunun qeyri-neft məhsulları hesabına genişləndirilməsi istiqamətləri. // Elmi Xəbərlər. Qərb Universiteti. – Bakı: – 2017. № 1, – s. 5-14.

11. Əliyev, Ş.T.Azərbaycanda qeyri-neft sənayesinin şaxələndirilməsi və ixrac potensialının artırılması istiqamətləri / – Bakı: – 2019. Audit №4, cild 26, – s. 61-73.

12. Hacıyev, F.Ş. Azərbaycan Respublikasında ixrac potensialının təhlili və inkişaf perspektivləri // "Statistika xəbərləri, № 1/2018" İl 4, Cild 1, Yanvar-mart, s. 28-37.

13. Əliyev, Ş.T. Ağdam və Füzuli rayonlarında postkonflikt ərazilərinin intensiv inkişafının Qarabağın dirçəldilməsində strateji əhəmiyyəti. "Geostrategiya" jurnalı, – sentyabr, 2022. №4(70), – s.89-93.

**Зибейда Ариф кызы ШАКАРАЛИЕВА**
докторант Азербайджанского Государственного Экономического
Университета, доктор экономики по философии, доцент.
E-mail: arifshakaraliyev1949@mail.ru

# ПУТИ РАЗВИТИЯ СФЕР НЕНЕФТЯНОГО СЕКТОРА И ПОВЫШЕНИЯ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА В АЗЕРБАЙДЖАНЕ

## Резюме

*Целью исследования* – является определение путей развития сфер ненефтяного сектора и повышения экспортного потенциала в Азербайджане. Анализирован и оценен потенциал развития ненефтяного сектора. Рассмотрен потенциал и пути расширения структуры ненефтяного экспорта. Изучены возможности экспортного потенциала экспортно-ориентированной сферы экономики с учётом приоритетности ненефтяного экспорта в стране. Подготовлены рекомендации и даны предложения по перспективам экспортного потенциала ненефтяного сектора в Азербайджане с учётом возможностей Карабахского и Восточно-Зангезурского экономических районов.

*Методы исследования* – являются следующие: синтез, анализ, статистический метод и и обобщение. Одновременно, учтены научные подходы ряда исследователей, которые изучали проблемы маневрирования экспортного потенциала ненефтяного сектора.

*Результаты исследования* - заключаются в применении научных методов в подготовке целевых государственных программ и мероприятий по повышению экспортного потенциала и развития ненефтяной сферы в стране.

*Ключевые слова:* ненефтяной сектор, экспортный потенциал, развитие ненефтяного сектора, структура ненефтяного экспорта, маневрирование экспортным потенциалом, пути повышения экспортного потенциала.

**SHAKARALİYEVA Zibeyda Arif,**
doctoral student of Azerbaijan State Economic University,
Ph.D. in economics, Associate Professor.
E-mail: arifshakaraliyev1949@mail.ru

## WAYS TO DEVELOP THE SPHERES OF THE NON-OIL SECTOR AND INCREASE EXPORT POTENTIAL IN AZERBAIJAN

### Summary

*The purpose of the research* is to determine ways to develop the spheres of the non-oil sector and increase export potential in Azerbaijan. The potential for development of the non-oil sector is analyzed for this purpose. The potential and ways of expanding the structure of non-oil exports are considered. The possibilities of the export potential of the export-oriented sector of the economy are studied, taking into account the priority of non-oil exports in the country. Recommendations on the prospects for the export potential of the non-oil sector in Azerbaijan, taking into account the capabilities of the Karabakh and East Zangezur economic regions are given in the article.

*Research methods* - are the following: synthesis, analysis, statistical method and and generalization. At the same time, the scientific approaches of a number of researchers who studied the problems of maneuvering the export potential of the non-oil sector are taken into account.

*The results of the research* are the use of scientific methods in the preparation of targeted government programs and measures to increase export potential and the development of the non-oil sphere in the country.

***Keywords***: non-oil sector, export potential, development of non-oil sector, structure of non-oil exports, maneuvering with export potential, ways to increase export potential.